# Azərbaycan dünyada mötəbər söz sahibinə çevrilib

***Hazırda dünyanın başı dərddədir. Bir tərəfdən, koronavirus pandemiyası can almaqda, iqtisadiyyatları çökdürməkdə davam edir, digər tərəfdən, münaqişələrin getdikcə alovlanması və müharibə həddinə çatması, daxili qarşıdurmalar, miqrantların, qaçqınların sayının durmadan artması, daxili qarşıdurmaların dövlətlərarası müharibəyə çevrilməsi, təbii fəlakətlər vəziyyəti getdikcə ağırlaşdırır.***



Azərbaycan da dünyanın bir parçası olduğundan, təbii ki, belə xoşagəlməz hallardan kənarda qala bilməz. Ancaq dövlət başçımızın düşünülmüş siyasi kursu nəticəsində respublikamız digər ölkələrlə müqayisədə bu bəlalardan ciddi zərər çəkmir, əksinə, pandemiyadan ziyan görən ölkələrə yardım edir.

Koronavirusun tüğyan etdiyi vaxtlarda Azərbaycan 30-dan çox ölkəyə maddi və humanitar yardım göstərmiş, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar ianə etmişdir. Üstəlik, ölkədaxili layihələrin icra olunması istiqamətində işlər davam etdirilmiş, xüsusilə, sosial layihələrin icrası ixtisara salınmamış, əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində qətiyyətli addımlar atılmışdır.

## Daxili və xarici siyasətin uğurlarında pik nöqtə

Ermənistanın 30 illik işğalçılıq siyasətinə son qoyulması və ərazi bütövlüyümüzün bərpası Azərbaycanın güdrətli dövlət olduğunu bir daha dünyaya nümayiş etdirdi. Söz yox ki, ermənilərin xalqımıza qarşı düşmənçilik siyasəti 200 ildən artıq davam edib. Bu müddət ərzində düşmən soydaşlarımıza qarşı dəhşətli soyqırımı, qətliam və terror aktları törədib. Nəhayət, 2020- ci il noyabrın 10- da Azərbaycan Ordusu düşməni diz çökdürdü və Ermənistan rəhbərliyi təslimçilik aktını imzalamaq məcburiyyətində qaldı. Bu tarixi Qələbə Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin pik nöqtəsi oldu. Dünya Azərbaycanın öz gücü ilə ərazisini düşməndən xilas və müdafiə etməyə qadir olduğunu gördü. Bu, həm də Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş xarici siyasətin bəhrəsidir.

Bir vaxtlar ölkəmizlə hərb dilində danışmağa cəsarət edən Ermənistanın baş naziri Nikol Paşinyan artıq yazıq görkəm alaraq, Azərbaycanla sülh sazişinin imzalanacağını bəyan edib. Baş nazir bunu "Ermənistanın diplomatiya günü"nə həsr olunmuş tədbirdə deyib: "Gündəlikdə regional kommunikasiyaların açılması, Ermənistan-Azərbaycan sərhədinin demarkasiyası, həmçinin Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması məsələləri var".

Xarici siyasətdən söhbət düşmüşkən, qeyd etmək istərdik ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra qarşıda duran mühüm vəzifələrdən biri milli mənafelərə əsaslanan xarici siyasət kursunun həyata keçirilməsi idi. Ulu öndər Heydər Əliyevin ölkənin düşdüyü ağır vəziyyətdən xilası üçün səmərəli, düşünülmüş praqmatik xarici siyasət kursu özünü bütün sahələrdə doğrultdu. Son 18 ildə siyasi, iqtisadi, mədəni sahələrdə qazandığımız nailiyyətlər də bundan xəbər verir. 2020- ci il noyabrın 10-da Ermənistanın Azərbaycana təslim olduğunu rəsmən təsdiqləməsi və kapitulyasiya aktını imzalaması ölkəmizin dünya miqyasındakı reytinqini daha da yüksəltdi.

**(ardı 3-cü səhifədə)**

# Azərbaycan dünyada mötəbər söz sahibinə çevrilib



(əvvəli 1-ci səhifədə)

Heydər Əliyev xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirərkən demişdir: "Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır".

O vaxtdan başlayaraq, indiyədək Azərbaycanın bütün dövlətlərlə bərabərhüquqlu əlaqələrinin yaradılması istiqamətində mövcud imkanlardan istifadə edilir. Ulu öndər də bunu dəfələrlə vurğulamışdı: "Azərbaycanın bütün dövlətlərlə gərək, bərabərhüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəbistan dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Mərkəzi Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabər hüquqlu əlaqələri olmalıdır".

Prezident İlham Əliyevin qətiyyəti, polad iradəsi, xarici siyasət sahəsindəki uğurlarımızı daha da artırır. Bunun nəticəsi olaraq ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Ermənilərin zaman - zaman "böyük Ermənistan" yaratmaq ideyaları puç oldu. İşğalçılar bu çirkin ideyalarını gerçəkləşdirmək üçün ərazilərimizi zəbt edib, soydaşlarımıza qarşı dəhşətli soyqırımı və terror aktları törədiblər.

Ermənistan artıq layiq olduğu yerdədir. Azərbaycanın isə əlaqələri daha da genişlənir, mövqeyi güclənir. Ölkəmizin müdafiə qüdrətinin artırılmasında ordu quruculuğu ilə yanaşı, nüfuzlu dövlətlərlə müqavilələr, birgə bəyannamələr imzalanır. Həmin bəyannamələrin prioritetini hərbi sahədə əməkdaşlığı genişləndirmək təşkil edir.

## Qalib xalqın müzəffər ordusu

Söz yox ki, ölkəmizdə dövlət quruculuğu prosesi daim dövlət başçımızın diqqət mərkəzindədir. Silahlı Qüvvələrimiz bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir. Məhz bu uğurlu siyasət nəticəsində rəşadətli ordumuzun adı dünyanın ən güclü orduları ilə bir yerdə çəkilir. Ordumuzun müasir texnika, silah-sursatla təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması dövlət başçımızın məqsədyönlü şəkildə apardığı siyasətin tərkib hissəsidir.

Ötən 18 ildə ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, Silahlı Qüvvələrdə aparılan islahatlar və bunun nəticəsi olaraq, baş verən keyfiyyət dəyişiklikləri müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğundakı davamlı işinin nəticəsidir. Bu gün dünyanın ən qüdrətli ölkələrinin yüksək rütbəli hərbçiləri Şuşanın işğaldan azad edilməsi uğrunda ordumuzun göstədiyi yüksək peşəkarlıqdan danışır, hətta bu hərbi taktikanı öyrənməyə çalışırlar. Hərbi mütəxəssislər də qeyd edirlər ki, Azərbaycan Ordusu hərb tarixində yeni döyüş taktikalarının müəllifidir. Hətta dünyanın aparıcı kütləvi informasiya vasitələrində Şuşanın azadlığı uğrunda hərbçilərimizin göstərdikləri qeyri-adi şücaət haqqında dəfələrlə məqalələr dərc edilib. Fakt üçün ABŞ-ın Milli Müharibə Kollecinin və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərini göstərə bilərik.

Azərbaycan Ordusunun hərbi taktikası öyrənilərkən belə qənaətə gəlinib ki, bizim qarşımızda hətta dünyanın aparıcı ölkəsi olsaydı belə, onun da heç bir şansı olmayacaqdı. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir. II Qarabağ müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə salınaraq öyrənilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətini qeyd edirlər.

Hərbi quruculuq işi Prezident İlham Əliyevin dövlət siyasətinin strateji prioritetlərindəndir: "Əminəm ki, Azərbaycan gücləndikcə ordumuz da güclənəcək və ordumuz istənilən vəzifəni həll etməyə hazırdır, buna qadirdir. Azərbaycan Ordusu nəinki bölgədə, hətta, hərbi potensialına, döyüş qabiliyyətinə, təchizata görə dünya miqyasında güclü ordular sırasındadır. Düşmən bilməlidir ki, biz istənilən anda məsələni hərb yolu ilə həll edə bilərik. Ordunun güclənməsi, orduda nizam-intizamın güclənməsi, ordunun maddi-texniki bazasının möhkəmlənməsi, müasir silahların alınması – bütün bunlar buna görədir." Ali Baş Komandan bundan sonra da ordu quruculuğunun prioritet sahələrdən olacağını vurğulayıb.

## Ölkəmizin müdafiə qüdrəti daha da artacaq

Qələbədən sonra qarşıya qoyulan prioritet vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma, bərpa-quruculuq işlərinin sürətləndirilməsi idisə, digəri isə ölkəmizin müdafiə qüdrətinin daha da artırılmasıdır. Çünki düşmən çox hiyləgərdir və hər an baş qaldıra bilər. Prezident İlham Əliyev də xalqa müraciətində bunu qəti olaraq bildirib: "Biz bölgəni erməni faşizmindən xilas etdik, dünyanı erməni faşizmindən xilas etdik. Amma baş qaldıra bilər. Ancaq biz imkan verməyəcəyik. Hər kəs bunu bilsin. Özümüzü müdafiə etmək üçün istənilən addımı atacağıq. Öz vətəndaşlarımızı müdafiə etmək üçün istənilən addımı atacağıq və heç kim bizi saxlaya bilməz".

Postmüharibə dövründə həyata keçirilən tədbirlər sırasında qüdrətli dövlətlərlə imzalanmış bəyannamələri xüsusilə qeyd etmək istərdik. İlk bəyannamə 15 iyun 2021- ci ildə Şuşada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Prezident İlham Əliyev arasında imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsi oldu.

Azərbaycan və Türkiyə arasında imzalanmış Bəyannamə iki ölkə arasında münasibətlərdə inqilabi gerçəklikdir. Bəyannamədə diqqəti çəkən ən vacib məqamlardan biri hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Burada qeyd edilir ki, iki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birini qoruyacaqlar. Bəyannamədə deyilir: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır".

Ardınca, 2021-ci il iyulun 28-də Bakıda Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin birinci üçtərəfli toplantısının yekununda Bakı Bəyannaməsi qəbul edildi. Azərbaycan, Pakistan və Türkiyə arasında qardaşlıq, tarixi və mədəni bağlar, qarşılıqlı hörmət və etimad əsasında mövcud əlaqələrin əhəmiyyəti, dövlətlərimiz və millətlərimiz arasındakı əməkdaşlığın daha da dərinləşdirilməsi üçün 3 ölkə arasındakı parlamentar dialoq və iş birliyinin gücləndirilməsinin vacibliyi, Azərbaycan, Pakistan və Türkiyənin bölgələrində sülh, sabitlik və inkişafı yaratmaqda oynadıqları əhəmiyyətli rollar və digər amillər bəyannamədə öz əksini tapıb.

Ötən ay imzalanan Moskva Bəyannaməsi hərbi müttəfiqlik sahəsində atılan bir uğurlu addım oldu. Söz yox, həmin bəyannamə imzalanana qədər Rusiya ilə bir neçə bəyannamə imzalanmışdı. Dövlət başçımızın dediyi kimi, Moskva Bəyannaməsi münasibətlərimizi müttəfiqlik səviyyəsinə çıxarır. Prezident qeyd edib ki, Azərbaycan və Rusiya arasında çox geniş müqavilə-hüquq bazası var, 245 sənəd imzalanıb. Lakin onların arasında Moskva Bəyannaməsi xüsusi əhəmiyyət kəsb edir.

Moskva Bəyannaməsinin bütün maddələri Azərbaycanın milli maraqlarına uyğundur. Hər iki ölkə müttəfiqlik fəaliyyətini bir-birinin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, güc tətbiq etməmək və güclə hədələməmək prinsipləri üzərində qurulması, müttəfiqlik münasibətlərinə xələl gətirən hərəkətlərdən, eləcə də bir-birinə qarşı yönəlmiş hərəkətlərdən çəkinmək, öz ərazisində hər hansı bir təşkilat və şəxslərin digər tərəfin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısını almağa dair öhdəlik götürürlər. Bəyannamədə xüsusi olaraq vurğulanır ki, hər iki ölkə müstəqil xarici siyasət yürüdür. Bu sənəd təkcə çoxillik birgə işə yekun vurmaqla kifayətlənməyib, həm də gələcək üçün böyük perspektivlər açır.

Bütün bunlar ölkəmizin qüdrətini daha da artırıb. Artıq Azərbaycan dünya birliyində qalib, sayılıb-seçilən dövlətlərdən biridir. Dövlət başçımız da çıxışlarının birində bunu qəti olaraq bildirib: "Biz o ölkələrdən deyilik ki, kiminsə qabağında baş əyək və mən də o liderlərdən deyiləm ki, kimdənsə nə isə qəbul edim, hansısa sözü. Artıqlaması ilə cavab vermişəm və verəcəyəm lazım gəldikdə. Ona görə əgər erməni faşizmi bir də baş qaldırsa, əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, 10 qatını alacaqlar, 10 qatını və heç kim bizi durdura bilməz".

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***